PARADIGMA, No.2, 2025, səh.12-18
https://doi.org/10.30546/30015.2025.2.105

# İSA MUĞANNANIN “GURÜN”, “QƏBİRİSTAN”, “CƏHƏNNƏM” ROMANLARINDA MAGİK REALİZM ELEMENTLƏRİ

**K.E. Qasımova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: kamala.gasimova@student.au.edu.az

**Xülasə:** Magik realizmin ilkin elementlərinə şifahi xalq ədəbiyyatında rast gəlirik. Yazılı ədəbiyyatda isə magik realizm elementləri klassiklərin əsərlərindən müasir yazıçılara qədər müxtəlif variantlarda qələmə alınmışdır. Müasir dövrdə aktual olan yazıçılardan İsa Muğannanın əsərlərində mifik obrazlara rast gəlirik. Sənətkarın, xüsusilə, son əsərləri olan “GurÜn”, “Cəhənnəm”, “Qəbiristan” həm reallıq, həm də magik elementlər baxımından vəhdət təşkil edən əsərlərdəndir.

**Açar sözlər:** SafAğ elmi, OdƏr dili, mistik qüvvələr, tarixi aspekt, vətənpərvərlik

**Giriş.** Magik realizm, mif, magiya çalarları ta qədimdən, yəni şifahi xalq ədəbiyyatından üzü bəri ədəbiyyatımızda olan bir çox əsərlərdə özünü göstərir. Bu da xalqımızın qədim soykökü, məişəti, dini, adət-ənənələri və inancları ilə qırılmaz surətdə bağlıdır. İnsanlar öz yaratdıqları qəhrəmanların qələbə çalmasını istəyərkən, bəzən həyatda olmayan, qeyri-real qüvvələrin köməyindən də istifadə edirdilər. Bu da ədəbiyyatımızda mifin, sehrli qüvvələrin, mistik elementlərin, bir sözlə, var olmayan varlıqların meydana çıxmasına şərait yaradırdı. Şifahi xalq ədəbiyyatında rast gəldiyimiz simurq quşu, sehrli xalça, od püskürən əjdahalar, ağ qoç qara qoç, aşıq yaradıcılığından olan dastanlardakı qəhrəmanlara buta verilməsi magik realizmin ilkin izləri, çalarlarıdır. “Çünki qədim və ən qədim dövrlərin mədəniyyətindən danışarkən təbabəti ovsundan, mifi elmdən, oyunu mərasim və ayindən, eləcə də şeiri nəsrdən, zamanı məkandan və b. ayırmaq, demək olar ki, qeyri-mümkündür” [1, s.4]. Zaman keçdikcə real olmayan varlıqlar yazılı ədəbiyyatda da öz əksini tapmağa başladı. Yazılı ədəbiyyatın nümayəndələrindən yazıçı İsa Muğannanı nümunə gətirə bilərik. İsa Muğannanın əsərlərində magik realizm motivləri özünəməxsus çalarlarla öz əksini tapmışdır. Sənətkarın yaradıcılığını iki dövrə bölmək olar: 80- ci illərə qədər və ondan sonrakı dövr. Yaradıcılığının ikinci dövrünə aid olan əsərlər bir silsilə təşkil edir və bu baxımdan bir-birinin davamı hesab olunur. Bu əsərlərə “GurÜn”, “Cəhənnəm”, “Qəbiristan”, “İsahəq Musahəq” romanlarını misal göstərmək olar. Bu əsərlərdə yazıçı yaradıcılığının ilk dövründə qələmə aldığı obrazlardan, onların başına gələn müxtəlif hadisələrdən daha yeni formada və fərqli yanaşmada söhbət açır. Yazıçının özünəməxsus idrakı, dünyagörüşü, hadisələrə fərqli yanaşma üsulu onun son əsərlərində özünü daha qabarıq şəkildə göstərir. “Qəbiristan” əsərindəki Səməd Əmirli obrazı

bizə hələ yazıçının "İdeal" əsərindən tanışdır. "Sədr Mədəd Səmədlə bir süfrədə çörək yeyəndə, Səmədlə yanaşı çarpayıda yatanda Səməd elə o hənirlə isindiyini bilməmişdi. Yetdiyinə yetib, yetmədiyinə bir daş atmağının, "hoppanmağının", "qaynamağının" da elə o hənirdən olduğunu başa düşməmişdi" [3, s.25]. Bu əsərdən bizə məlumdur ki, Səməd Əmirli ilə Qudalılar arasında uzun sürən qan düşmənçiliyi vardır. "Qəbiristan" romanında bu düşmənçilik güclənərək daha şiddətli şəkil almışdır. Romanın əvvəlində Səminin (Səməd) arvadı Mariyanın Qudalılar tərəfindən öldürülməsi təsvir olunmuşdur. "Qəbiristan" əsəri əslində bir faciədir. Həm də bir ailənin, bir nəslin deyil, bütövlükdə cəmiyyətin faciəsidir. Romanda cərəyan edən hadisələr 1-ci Qarabağ müharibəsi dövründə yəni, 1992-93-cü illərdə baş verir. Bu dövrdə baş verən hadisələrə yazıçı tərəfindən baxış tamamilə fərqlidir.

Əsərin qəhrəmanı polis zabiti Səmidir. O, əslində aspiranturada təhsil alan bir ziyalıdır, elm adamıdır. Lakin, dövründə cərəyan edən hadisələr, ermənilərin haqsız torpaq iddiaları, Qarabağda baş verən faciələr Səmini (Səməd Əmirlini) elmdən uzaqlaşaraq avtomat götürməyə vadar etmişdi. Bir çoxları kimi Səmi də cəmiyyətdə gedən bu proseslərə səssiz qala bilmirdi. Lakin, qarşılaşdığı düşmən- həm xarici, həm də daxili düşmənlər xaricdəki havadarlarından dəstək alaraq qat-qat güclü idilər. Bu düşmənlər çox vaxt Səmiyə sarsıdıcı zərbələr vururdular. Səmi bəzən sarsılır, bəzən geri çəkilmək istəsə də, ona dostları, ətrafındakılar dəstək olurdular. Ən çox da atasının ruhu Səmini ən çətin anlarında ayağa qalxmasına kömək edirdi. Əsərdə olan magik realizm məhz Səminin atası Səməd Əmirlinin ruhudur. Burada İsa Muğanna SafAğ elmini, onun əsanını təşkil edən insan ruhunu yer üzərində canlandırır. O, reallıq kimi danışır, insanlara yol göstərir. Səməd Əmirlinin ruhu bir neçə dəfə oğlunun gözünə görünür, ona baş verə biləcək təhlükə barədə xəbərdarlıq edir. Ağır yaralı olan Səmi yuxu və ayıqlıq arasındakı bir vəziyyətdə olarkən atası onun yanına gəlir və tez -tez ona elm aləminə qayıt deyir. Sonra Sudüşən gölünə acıtərə yığmağa gedən Səmi orada Su pərisinin övladını görür. Onu götürüb gətirərkən bu kiçik, yaşıl gözlü oğlan yolda ölür. Bu da simvolik olaraq Səmiyə uğursuzluq gətirir. Səmi bir anlıq öz oğlu Midini xatırlayır. Çünki, Su pərisinin oğlu dönüb Midi olur. Əsər ümumiyyətlə, reallıqla mif arasında bir harmoniyadan ibarətdir. Bəzən oxucu hadisələrin real gerçəklik, yoxsa sehr, yuxu olduğunu anlamaqda çətinlik çəkir. Yazıçı bir növ reallıqda görmək istədiklərini, yuxuda, sehrdə, mifdə gerçəkləşdirir. Bəzən reallıqlar o qədər açıq göstərilir ki, oxucu bir anlıq 90-cı illərə qayıdır, ordakı hadisələri, hərc-mərcliyi, özbaşınalığı, puldan ötrü bir sıra vətən xainlərinin cilddən-cildə, roldan-rola girməyinin şahidi olur. "Eh, eh, a ninnini! Bə mən də sənə deməmişəmmi ki, ermənilərnən ruslar Kəlbəcərə doluşanda bu Qudalı gədələri də ordaymışlar. Gəlib Sayılova deyiblər erməni bütüncə qırdı sənin ailəni. Meyitlərin yerini

bilirik. Hər meyitə on min ver, gedək çıxardaq güllənin altından!..” [4, s.60]. Hadisələrlə yaxından tanış olduqca İsa Muğannanın tariximizi daha yaxından öyrənib, dərin biliklərə sahib olduğunun şahidi oluruq. Yerdə, ətrafında baş verən hadisələri SafAğ elmi ilə əlaqələndirən yazıçı reallıqlara bir növ sehrli don geyindirirdi. “İdeal” əsərindən başlanan magik realizm, SafAğ elmi əvvəlcə “Qəbiristan”, sonra da daha təkmilləşmiş formada “Cəhənnəm” əsərində özünü göstərir. “Cəhənnəm” SafAğ elminin, OdƏr dilinin daha təkmilləşmiş formasında meydana çıxır. Əsər başdan-ayağa demək olar ki, dialoq üzərində qurulmuşdur. Əsərin bütün fəsillərini müəllif “fantastikasız fantastika” adlandırır. “Fantastikasız”- yəni real, gerçək olanlar. Əsərin əvvəlində İsa Muğanna romanın adı haqqında belə bir şərh verir: “Cəhənnəm” deyilən doğrudan da, varmı ya yoxdur? Varsa, ömrü onsuz da işgəncələr içində keçən insanı bir daha, özü də daimi əzaba salmağa hansı vicdansız yaradıcıya lazım olub? Və ya cəhənnəm yoxdursa, bir para adamın dediyi kimi, insanı bəd əməldən çəkindirmək, qorxutmaq üçün din uydurmasıdır” [4, s.235].

Əvvəldə cəhənnəmin varlığı haqqında tərəddüd keçirən yazıçı sonra tam əminliklə “Cəhənnəm var” deyir. Ömrünün sonuna qədər SafAğ elminin gerçəklərini öyrənməyə can atan İsa Muğanna “Cəhənnəm” əsərində bu elmin sirlərini açıb, oxucusuna göstərməyə can atır, bir növ ona SafAğ elminin sirlərini öyrədir. Bu elm, artıq oxuculara yazıçının əvvəlki əsərlərindən tanışdır. “Qəbiristan”da rast gəldiyimiz epizodlar, surətlər, “Cəhənnəm”də bizə yeni məkanda, daha da təkmilləşərək SafAğ elmi ilə bütünləşmiş, kamilləşmiş bir formada təqdim edilir. Burada göstərilən Səməd artıq SafAğ elminin sirlərinə vaqif olan bir obrazdır. Bünyad bəyi danışdırdıqca biz bunun şahidi oluruq. Əsərin qəhrəmanı olan Bünyad bəy xaraktercə, çox mənfi bir obrazdır. Yaşadığı dövrdə xeyli insana pislik etmiş, onları bəlalara düçar etmişdir. Müəllif əsərin qəhrəmanını təsadüfi olaraq mənfi obraz seçməmişdir. Çünki yaşadığımız planetdə Bünyad bəylər çoxluq təşkil edir. O, qəhrəmanı mənfi obraz seçməkdə insanlara SafAğ elminin sirlərini, nəyə qadir olduğunu, bu elmin üstünlüklərini açıb göstərmək istəyir. Bu elmə görə insan ruhu cəhənnəmdə təmizlənərək, paklanaraq yenidən kamil bir formada yer üzərinə qayıdır. Bünyad bəy isə bu saflığa, kamilliyə çata bilmir. Çünki onun günahları ölçüyə gəlməz dərəcədə çoxdur. Günah üstündən günah işlədən Bünyad bəy yaşadığı dünyanı da çirkləndirir, hər şeyə mənfi təsir edir. Bunu göstərməklə İsa Muğanna insanları bu dünyada pislik etməkdən çəkindirmək istəyir. Əgər insanın xarakterində insani anlayış yoxdursa, deməli, o insanlıqdan çıxmışdır. Onu yer üzərində yaşadığı torpaq da götürmür, lənətləyir. İkiüzlülük, saxtakarlıq, xainlik, heyvani hisslərlə yaşamaq insan övladına aid xüsusiyyətlər deyil, bunlar bəşəriyyətə bəladan başqa bir şey gətirməz. “Cəhənnəm” əsərində bizə tanış olan xeyli sayda

tarixi epizodlar var: Lenin, Stalin, Mir Cəfər Bağırov, Beriya, 37-ci il repressiya qurbanları, inqilabçılar, Xruşşov, Brejnev və başqalarının adları əsərdə tez-tez çəkilir. Onların kimə və nəyə qulluq etdikləri vurğulanır. "Orda bronepoyezdə bir yevreyka verbovat eləmisən ki, Lenini zəhərləsin. Həmid Sultanovu, Baba Əliyevi zəhərləsin. Sonralar Səməd Vurğuna, Mehdi Hüseynə, sonradan Adı Pünhan Muğannaya qədər Türklərimizi zəhərləmək üçün verbovat elədiyin qızlara bax! Görürsənmi?" [4, s.265].

Əsərdə əfsanə ilə həqiqət, reallıqla mif, gerçəkliklə sehr qarşılaşdırılır. "Cəhənnəm" romanında da SafAğ elmi, OdƏr dili, yer planetini idarə edəcək "təriklər", bu elmə vaqif olan insanlar, "EvƏrEy" lər və başqaları haqqında geniş məlumat əldə etmək mümkündür. Bu onu göstərir ki, İsa Muğanna tariximizə yaxından bələd olmaqla yanaşı, gedən tarixi prosesləri daim izləyir və hadisələrdən aydın nəticə çıxarırdı. "Cəhənnəm" romanı tarixi prosesləri özündə əks etdirir. Tarixdəki açılmayan sirləri SafAğ elmi vasitəsilə açır, ona yeni, tamamilə fərqli bir don geyindirirdi. "Divanın"da kədər, dərd-ələm var. Bilirmiş ki, Sultan Səlim Təbrizdə qalan düşmənləri rahat buraxmayacaq, onun, şahın özü də şübhəsiz, bu zibilliyə bulanacaq. Buna görə də "Yəhudi"liyini-Tərikliyini-Türklüyünü, dilini işlətmirmiş. Azərbaycanın sovet alimləri deyirlər: "İsmayıl türk dilini dövlət dilinə çeviribmiş". Əslində bu da yalandı. Öz dilində yazıbmış Sultan Səlimə məktublarını, sultan da, əlbəttə, dərk eləyirmiş ki, OdƏrlik mədəniyyətindən gələn bu dildə belə gözəl, aydın yazan İsmayıl onun doğması, əzizidir, tora düşüb" [3, s.285]. Əsərdəki Bünyad bəylə Səməd Əmirli qarşı-qarşıya qoyulan obrazlardır. Səməd Əmirli bizə "İdeal"dan, "Qəbiristan"dan tanış olan müsbət bir qəhrəmandır. Bünyad bəy isə qeyd etdiyimiz kimi "xirtdəyə" qədər mənfiliklərə bulaşmış bir xarakterdir. Bünyad bəyə törətdiyi hadisələr, vəhşiliklər, ədalətsizliklər barədə suallar yağdırılır. Bu suallar əvvəlcə "Cəhənnəmin huriləri" tərəfindən verilsə də, sonra Səməd Əmirli bu dialoqu davam etdirir. Bünyad bəy bir cinayət daha törədir. Mənfi obraz olan, kimliyi, dini, milləti bəlli olmayan Xəlvət Rəhimi də öldürür. Hadisələrin realmı yoxsa bir yuxumu olduğu aydınlaşmır. Çünki Səməd Əmirli o biri dünyadan gəlmişdi və Bünyad bəyi sual-cavab edirdi. Musa da o biri dünyadan gəlmişdi. Bunlar Bünyad bəyin cinayətlərinin qurbanları idilər. Bünyad bəy öz şərlikləri, öz cinayətlərinin qurbanları ilə üz-üzə qalmışdı. Səməd Əmirli Bünyad bəyə sual verdikcə o daha çox çirkaba bulaşır, törətdiyi cinayətlərin əzablarını çəkməyə məhkum edilirdi. Burada göstərilən Səməd Əmirli, sanki, müəllifin özüdür, SafAğ elminin bilicisidir. Səməd Əmirli hər şeydən xəbərdardır: keçmişi və gələcəyi görür, nə olub? necə olub? və onları nələr gözləyir?- hamısı haqqında xəbərdardır. Bu da əsərdəki magik realizm detallarını bir daha üzə çıxarır. Bünyad bəyin başına gələnlər, onun o biri planetə aparılması, cəhənnəm sorğu-sualı,

yenidən yerə qaytarılması - hamısı sehr, mif əsasında yazılmışdır. Əsərdəki tarixi şəxsiyyətlərdən dahi şair Nizaminin də adı çəkilir: "Sirlər xəzinəsi"ndə Nizami yazıb ki, "Yer dəli olub" "kəmərini", yəni Bağları qıracaq, parça-parça olub səmada fırlana-fırlana qalacaq" [4, s.320]. Bunu deməklə yazıçı şair Nizaminin də SafAğ elminin sirlərinə vaqif olduğunu çatdırmaq istəyir. Yazıçının tamamilə Nizami Gəncəviyə həsr etdiyi "GurÜn" əsəri Əxilər-AğEylər təriqətinin nümayəndələrini də özündə əks etdirir. "GurÜn" sözü OdƏr-cə "Quran" sözündən götürülmüşdür, yəni "Quran" "GurÜn" ün təhrif olunmuş formasıdır.Əsərdə tarixi həqiqətlərlə yanaşı magik realizm ünsürləri də öz əksini tapmışdır. Əsər Atabəy Məhəmməd Cahan Pəhləvan və Nizami Gəncəvinin dialoqu ilə başlayır. Nizaminin Sirlər Xəzinəsi əsərindəki hekayət və məqalələrdən söz açılır. Əsərdəki adları çəkilən obrazlar- Əxi Baba, Qutayba,İnanc Xatun, Afaq real obrazlardır. EySar, cahil-Div obrazları isə mistik obrazlardır. Əsər üç hissədən ibarətdir: Elm, din və dil. Din adlanan hissədə Atəşpərəstlik və ondan sonrakı səmavi dinlərin tarixindən söhbət açılaraq fərqli mülahizələr ortaya çıxır. SafAğ elmi, EySar, OdƏr, OdƏs və başqaları təhlil edilərək oxuculara təqdim edilir. Əsərin üçüncü fəsli isə Dil adlanır. Burada OdƏr dilindən bəhs edilir. Nizaminin əsərlərində göstərilən istinadlar əsərin hər fəslində özünü göstərir. İsgəndər, Bəhram şah, Dara, Rast Rövşən -Nizaminin əsərlərinin qəhrəmanları, SafAğ elminin sirlərini öyrənməyə can atan, bu elm vasitəsilə kamilləşməyə məhkum olan obrazlar kimi göstərilir. Yazıçı dahi Nizaminin də SafAğ elminə bələd olduğunu, və əsərlərində sətiraltı mənada bu elmi təbliğ etdiyini söyləyir. Çünki bu elm öyrənilməsə, bəşəriyyətin başqa xilas yolu yoxdur. Başqa yol insanları fəlakətə sürükləyir. Tarixi mövzuda yazdığı əsərlərlə yanaşı, yazıçının avtobioqrafik əsərləri də vardır. İsa Muğannanın avtobioqrafik səpkidə qələmə aldığı "İsahəq Musahəq" əsərinin baş qəhrəmanı elə yazıçının özüdür. Uşaqlığını, gənclik illərini, başına gələn hadisələri bu əsərdə qələmə alıb. Əsərin əsasını həqiqət və SafAğ elmi təşkil edir. Əsərdə sovet dövründə gənc bir yazıçının taleyi və başına gələnlərdən söhbət açılır. Hürufilik təriqəti, bu təriqətin mənası, məzmunu əsərdə öz əksini tapıb. İsa Muğanna ruhunda yazılmış bu əsər OdƏr dili, SafAğ elmi, EySar, Bağday və s əsərin reallıqlarını özündə əks etdirir.

Hürufilik təriqətinə biz bundan əvvəl yazıçının "Məhşər" romanında da rast gəlmişik. Bu roman özü də magik realizm elementləri ilə zəngindir. Dahi şair Nəsiminin hürufilik təriqətinin əsasında da magik realizm dayanır və romanın əsas qayəsini təşkil edir. "Teymur alimənsəb seyidlərinə təzyiq göstərib, səltənətindəki bütün məqbul sufi təriqətləri ilə bir sırada hürufiləri də məqbul saymış, üstəlik, onların həqiqətini, cümlə aləm rəmzi Yer, Günəş, Ay totemini və şübhəsiz, cəmi yer üzündə həq səltənəti məramını qəbul edib, çox güman ki, məhz

bu məram sayəsində Fəzl dərvişlərinin köməyi ilə, bəlkə də daha heç vaxt qan tökmədən, öz cahangirlik niyyətlərinə çatmaq istəmişdi” [2, s.290].

Muğanna da Nəsimi kimi həyatı boyu paklığın, insanlığın, kamilliyin, dürüstlüyün axtarışında olub. Nəsimi ilə Muğannanı birləşdirən reallıq bundan ibarətdir. Ədibin bütün əsərlərində biz bunun əyani şahidi oluruq. Xüsusilə qələmə aldığı son əsərlərində yazıçı Yer planetindən başqa da yaşayış və həyat olan bir planetin olduğunu, həyatdan köçən insanların orada daha xoşbəxt, ədalətli yaşadıqlarını və bu planetdəki insanların ölümsüz olduğunu qələmə almışdır. Üstəlik  bu başqa planetin insanlarının öz SafAğ elmləri,öz OdƏr dilləri, öz dinləri, öz inancları vardır. “Ağlar Türklərin böyükləridir. Ağlar, yəni ümumbəşəri SafAğ Elminin alimləri SafAğ İnsanlar! Mənə şübhə edənlər zəhmət çəkib bu il “həcc” əvəzində bir az o yana-qədim yurdlarımızadan biri Əlvənd (ƏlEvOd-yəni həqiqət Evinin Əli- Oğlu ƏsƏlMən) dağını ziyarətə getsinlər, ordan qayıdıb “Əlvənd” dağından Kürdəmirlə Ucarın aralarına sürgün edilmiş adamların indi də  dəyişməyən dümağ sifətlərinə tamaşa etsinlər” [5, s.41]. Bu inanclar yerdəkilərdən daha güclü, daha dərin, daha əhəmiyyətlidir. Son əsərlərini bu elm, din, əbədiyyət üzərində quran və SafAğ elmini öyrənməyə ruhlandıran yazıçı başqa aləmin varlığına səmimiyyətlə inanır və oxucusunu da bütün bunlara inandırırdı.

**Nəticə.** Magik realizm və İsa Muğanna - bu iki məfhum Azərbaycan ədəbiyyatına uğurlu, özünəməxsus bir yenilik gətirdi desək, yanılmarıq. Xüsusən, ədibin Muğanna  təxəllüsü ilə başladığı son əsərləri bizə magik realizm haqqında çox mətləbləri agah edir. Magik realizm real dünyadan fərqli bir həyat, zəmanə insanından başqa bir varlıq, müasir elmdən daha dərin bir elmdir. Budur İsa Muğanna yaradıcılığının açarı, kodu. Bu kodla İsa Muğanna gah kosmosa, gah Marsa gedir, bəzən də müasir insanları saflaşdırmaq məqsədilə yer planetinə gəlir. Qulağına pıçıldayan həqiqət “Ün”ləri onu sehrlərə bürünmüş bir reallıq haqqında məlumatlandırır. Bu məlumatları yazıçı yorulmadan öz əsərlərinə köçürür. Bu həqiqətləri, bu mistik reallıqları müasir oxucularına çatdırmağa tələsir. “GurÜn”, “Cəhənnəm”, “Qəbiristan” İsa Muğanna həqiqətlərinin süzgəcindən keçərək müasir həyatda gerçəkləşən şah əsərlərdir.

## Ədəbiyyat siyahısı

1. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı, “Şərq-Qərb”, 2005, 304 s
2. İsa Muğanna. Seçilmiş əsərləri. Altı cilddə. III cild. Bakı, “Avrasiya press” 2009, 304 s.
3. İsa Muğanna. Seçilmiş əsərləri. Altı cilddə. IV cild. Bakı, “Avrasiya press” 2009, 576 s.
4. İsa Muğanna. Seçilmiş əsərləri. Altı cilddə. V cild. Bakı, “Avrasiya press” 2009, 480 s.
5. İsa Muğanna. Seçilmiş əsərləri. Altı cilddə. VI cild. Bakı, “Avrasiya press” 2009, 384 s.

# THE ELEMENTS OF MAGICAL REALISM IN ISA MUGANNA'S NOVELS "GURUN", "CEMETERY" AND "HELL"

**K.E. Gasimova**
Azerbaijan University, Ceyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** The initial elements of magical realism can be found in oral folk literature. In written literature, elements of magical realism have been depicted in various forms, from classical works to contemporary writers. In modern times, we encounter mystical characters in the works of Isa Muganna, one of the prominent contemporary writers. His latest works, particularly "GurUn", "Hell", and "Cemetery" are among those that integrate both reality and magical elements in harmony.

**Keywords:** SafAg science, OdAr language, mystical forces, historical aspect, patriotism.